# Ağstafada "Böyük ömrün salnaməsi"ndən danışılmışdır

## "Heydər Əliyev İli" çərçivəsində rayonda intellektual yarış da keçirilmişdir





Ağstafadakı Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əlievin 100 illiyinə həsr olunmuş "Böyük ömrün salnaməsi" mövzusunda ümumrayon tədbiri keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Seymur Orucov müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xalqımızın xoşbəxt gələcəyi naminə həyata keçirdiyi işlərdən, ölkəmizin iqtisadi qüdrətinin artırılmasında və onun dünya siasətində öz yerini möhkələndirməsində göstərdiyi xidmətlərdən danışmışdır.

Sonra Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Nurəddin Mehdiyev, rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, tarix müəllimi Şəfəq Cəlilova, mədəniyyət işçisi Rüfət Axundlu çıxış edərək Heydər Əliyevin mənalı ömür yolundan və genişmiqyaslı fəaliyyətindən söz açmışlar.

Tədbir incəsənət ustalarının çıxışları ilə yekunlaşmışdır.

* * *

Rayonun ümumtəhsil məktəblərinin gənc tarix müəllimləri arasında "Heydər Əliyev - Əsrin lideri" mövzusunda "Nə?, Harada?, Nə zaman?" adlı intellektual yarış keçirilmişdir.

Yarışda 15 komanda iştirak etmişdir. Əvvəlcə iştirakçılar məktəbin foyesində təşkil edilmiş "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində aşkarlanmış maddi-mədəniyyət nümunələrindən və qoruğa məxsus çap məhsullarından ibarət sərgi ilə tanış olmuş, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.

Üç mərhələ üzrə keçirilən final yarışında iştirakçılara Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini, o cümlədən bölgəmizin tarixi abidələrini əhatə edən suallar verilmişdir. Münsiflər heyətinin yekun rəyinə əsasən, Dağ Kəsəmən kənd 1 nömrəli tam orta məktəbini təmsil edən "Cəbrayıl" komandası 1-ci, Qaçaq Kərəm kənd tam orta məktəbini təmsil edən "Göyəzən" komandası 2-ci və Ağstafa şəhər texniki və humanitar təmayüllü liseyi təmsil edən "Xarıbülbül" komandası 3-cü yerə layiq görülmüşlər. Qalib komandalara xatirə hədiyyələri və mükafatlar təqdim edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-1 fevral.- S.5.